

## MƏHƏMMƏD ƏLİ

# *Azərbaycan*

**Azərbaycan -**
yerin qəlbindən qopan od, atəş!
**Azərbaycan -**
yerdən göylərə nur saçan günəş!
**Azərbaycan -**
qədimdən qədim ulu bir torpaq,
**Azərbaycan -**
inam, and yerim, müqəddəs ocaq.
**Azərbaycan -**
dahilər yurdu, şanlı məmləkət,
**Azərbaycan -**
cənnətlər içrə əbədi cənnət.
**Azərbaycan -**
daşı, torpağı, həm də suyu dürr,
**Azərbaycan -**
tanrıdan gəlmiş ilahi bir nur.
**Azərbaycan -**
açılan aydın sabah, al səhər,
**Azərbaycan -**
onun nurundan boylanır bəşər.
**Azərbaycan -**
yerin qəlbindən qopan od, atəş!
**Azərbaycan -**
yerdən göylərə nur saçan günəş!

# *Şeir yarandı*

Qar əridi,
kol dibindən
mürgülü-mürgülü
boynu bükülü
bənövşə boylandı,
şeir yarandı.
Narın-narın
yağış yağdı,
təbiət yuyundu,
gül-çiçəklər nazlandı,
şeir yarandı.
Buludlar toqquşdu,
şimşəklər çaxdı,
göy üzündə tonqal qalandı,
şeir yarandı.
Iki gənc eşqə düşdü,
eşq odunda alovlandı,
yandı,
şeir yarandı.
Dilsiz bir körpənin
üzündəki təbəssümdən
cahan nura boyandı,
şeir yarandı.
Bahar gəldi,
təbiət atlas donunu geyindi,
bağça-bağlar çiçək açdı,
hər yan al-əlvandı,
şeir yarandı.
Ulu tanrı bəndəsinə
yol göstərən müqəddəs
bir kitab göndərdi,
adı "Quran"dı,
şeir yarandı.

## Bizim qızlara

*(müəssisəmizin qızlarına)*

Vardı əhdinə sədaqəti bizim qızların,
Çün safdır eşqi, məhəbbəti bizim qızların.

Dodaqlarında təbəssüm var, üzündə gülüş,
Xoşdur hər kəslə ünsiyyəti, bizim qızların.

Dindirsən əgər dodaqları dürr saçacaqdır,
Baldır, şəkərdir, söz-söhbəti, bizim qızların.

İnsan cildində olan sanki huri-mələkdir,
Görən çaş qalır, ol surəti, bizim qızların.

Pərvanəsidir öz eşqinin, yanar oduna,
Tükənməzdir eşq hekayəti, bizim qızların.

Məhəmməd Əli, etsələr də onlar sənə naz,
Qəlblərində var mərhəməti, bizim qızların.

## Bulud - duman

Göydən enən bulud
Yerdə duman olur.
Kol-kosa sürtünüb
halı yaman olur.
Şimşək olub çaxmır,
olmur yağış - qarı,
sürünə-sürünə
bağlayır yolları.

## Bakıda qar

Maşınların üstünə yıxılmış ağaclar.
Sonu görünməyən sonsuz tıxaclar.
Odu sönmüş sobalar, ocaqlar.
İşıqsız, soyuq otaqlar.
Saysız qəzalar, neçə-neçə yaralı və ölüm.
Mollaların, həkimlərin,
maşın təmirçilərinin dodaqlarında təbəssüm.
Buz bağlamış çala-çuxur yollar.
Məmurların cibinə seltək axan pullar.
Şaxta, məşəqqət.
Yoxsulların çəkdiyi min bir əziyyət
və bir də
göydən birbaş
onların başına düşən qara daş!

***25.11.2011***

## Hardasa

Havadan yağış ətri gəldi,
Hardasa bir qız ağlayırdı.
Göy üzünü qara bulud bürüdü -
hardasa sevən iki gənc
bir-birindən ayrıldı.
Yaz günəşi güneydəki qarı əritdi.
Hardasa bir gözəlin od baxışından
bir igidin ürəyinə od düşdü.
...payız gəldi,
hardasa başlandı yarpaq tökümü...

## Çiçək

Çiçək dərildimi, solar,
çiçək ömrünün sonu olar.
Dərilməyən çiçək çiçək deyil,
o heç kimə gərək deyil.

**xxx**

Bülbülün yuxusu,
qızılgülün qoxusu.

## Yarpaq tökülür

Əvvəl Fikrət Sadıq getdi,
sonra İlyas Tapdıq getdi.
İndi növbə mənimmidir, bilmirəm kimin?
Başlanıbdır şairlərin yarpaq tökümü.

## Oynayır

Qəlbimdə ocaq sönüb,
yerində kül oynayır.
Xarabaya dönəndən
içində yel oynayır.

Göy üzü qara bulud,
hər tərəf ölü sükut.
Şadlanmağı gəl unut,
qəmdən könül oynayır.

Baxıram göz alışır,
yazıram, söz alışır.
Bir-birinə qarışıb,
oba, həm el oynayır.

## Fikrət Sadıq haqqında

Fikrət Sadıq öldü, - dedilər,
sözüm burda qutardı, bitdi.
Şeirimizin duzu, məzəsi,
kaloriti onunla getdi.

xxx

Hərə öz ampiludasında
üç zurnaçı zurna çaldı.
Fikrət Sadıq zurnaçıları
olduğutək şeirə saldı.

xxx

Gənc yaşlarında gördü
həyatın sərt üzünü,
heç kimə əyilmədi,
üzə dedi sözünü.

xxx

Ata dərdi, oğul dərdi,
qəlbində bitdi, göyərdi.
Şükür eylədi Tanrıya,
bunu ona o, göndərdi.

## Cavid əfəndi

Bir kimsəyə həsəd aparmadı o,
nə də sənəti ilə özünü öydü.
Özündən razılar unudulubdur,
qəlblərdə yaşayır Cavid əfəndi.

## Zəlimxan Yaqub

Sinəsi idi söz dəryası,
dinəndə tufantək qopardı.
Ancaq çox sözləri demədi,
getdi, özü ilə apardı.

## Yuxuda

Heç xəbərin də olmayıb, gülüm,
dünən axşam,
sübhədək
sənnən ürəyimcə
kam almışam,
- qal yana-yana.

## Adsız şeirlər

Baxıb acı taleyimə
gülüb keçirsən yanımdan,
sənin gülən vaxtındır.
Unutma, mənim acı taleyim,
sənin qara baxtındır.

xxx

Mən sənə yaxınlaşdıqca
məndən qaçırsan.
Özün də bilmədən
günəş olub
yollarıma nur saçırsan.

xxx

Arzularım gül açmamış,
yağan dolu döydü məni.
Fələyə mən neyləmişdim,
yaman əydi,
əydi məni.

xxx

Bəzən də sübhədək mən
yatammıram gecələr.
Mən küçələrdə deyil,
küçə məndə gecələr.

